# BALTİKDƏN XƏZƏRƏ

## *Azərbaycan və Latviya Respublikasının müstəqilliyinin 100 illiyinə həsr olunur*




Azərbaycanın əlverişli coğrafi mövqeyi, Avropa ilə Asiyanı birləşdirən mühüm siyasi, iqtisadi dəhliz rolunu oynaması bir çox ölkələr kimi Latviyanın da diqqətini cəlb edir. Bundan əlavə, Azərbaycanın özünün son illərdə nail olduğu inkişaf göstəriciləri, respublikamızın regionda lider dövlətə çevrilməsi, habelə ölkəmizin hər bir sahədə müstəqil siyasət yeritməsi və enerji siyasətində Avropa məkanı ilə əməkdaşlığa xüsusi önəm verməsi də ölkəmizin tərəfdaşlıq qismində müsbət beynəlxalq imicini formalaşdıran mühüm faktorlardandır. Malik olduğu zəngin karbohidrogen ehtiyatları sayəsində Avropanın enerji təhlükəsizliyinin təminində əvəzolunmaz mövqeyə sahib olan Azərbaycanda yaradılan əlverişli biznes mühiti və geniş iqtisadi inkişaf potensialı da respublikamızın tərəfdaş ölkələrlə daha sıx əməkdaşlığına imkan verir. Azərbaycanın iqtisadi, siyasi, mədəni və digər sahələrdə davamlı inkişafı ölkəmizlə əməkdaşlıq etmək istəyən dövlətlərin sayının ilbəil artmasına gətirib çıxarmışdır. Ölkəmizlə əməkdaşlığa böyük maraq göstərən dövlətlərdən biri də Latviyadır. Öz növbəsində Avroatlantik məkana intensiv surətdə inteqrasiya edən Azərbaycan da Latviya ilə əməkdaşlıqda maraqlıdır. Qarşılıqlı ikitərəfli və beynəlxalq təşkilatlar çərçivəsində qurulan əlaqələr hər iki ölkənin siyasi, iqtisadi və təhlükəsizlik maraqlarına cavab verir.



*Latviya Respublikasının Azərbaycanda fövqəladə və səlahiyyətli səfiri və "Baltikdən Xəzər"ə kitabının müəllifləri Eşqin Rüfətli, Nəzakət Əliyeva.*

Məsələnin maraqlı tərəfi "Baltikdən Xəzərə" adlı kitabın müəllifləri - tələbə gənclərimiz ölkələr arasında sülh məqamlı körpü kimi düzgün mövqedə durmalarıdır.

Azərbaycan Atatürk Mərkəzində təqdimatı olan (24.08.2018) "Baltikdən Xəzərə" adlı kitabının redaktoru AMEA-nın həqiqi üzvü, Əməkdar elm xadimi Nizami Cəfərovdur. Təqdimatda iştirak edən Latviyanın Azərbaycandakı səfiri Yuris Maklakovs qeyd etmişdir ki, iki ölkənin müstəqilliyinin 100 illiyinə həsr olunan bu kitab iki ölkənin bir-birinə daha da yaxından tanınmasına xidmət edəcək. Təqdimatda çıxış edənlər kitabın əhəmiyyətindən bəhs etmişdilər.

Eşqin Rüfətli, Nəzakət Əliyevanın "Baltikdən Xəzərə" adlı kitabı gəncliyimizə bir örnək kimi diqqətə layiqdir. İki ölkənin dostluq əlaqələri dövlətçiliyimiz üçün vacib məqamlardan olduğunu ön plana gətirən hər iki gəncə gələcəkdə də uğurlar arzulayırıq.

**Aytən AYDINQIZI,**
**filologiya üzrə fəlsəfə doktoru, dosent.**